# Arterial hipetenziyanın erkən diaqnostikasında sortilin və apo-B dəyərlərinin prediktor əhəmiyyəti

**Aktuallıq.** Arterial hipertenziya ürək-damar sistemi xəstəliklərinin inkişafı üçün əsas risk faktoru olaraq öz aktuallığını müasir dövrümüzdə də qoruyub saxlayır. Çox vaxt arterial hipertenziya zamanı iltihab prosesləri ilə yanaşı qeyri-spesifik iltihab markerlərinin də (hs-CRZ, İL-6, TNF-α, sortilin və s.) rolunu da vurğulayırlar. Xüsusiylə də son dövrlərdə sortilin və onun sələflərinin atreoskleroz, ürək-damar və karotid arter xəstəliklərinin inkişafında rolu ön plana çəkilir. Həmçinin lipid profil göstəricilə-rindən sayılan apo-A və apo-B müasir diaqnostik dəyərlən-dirmələrdə daha çox diqqət mərkəzinə alınır.

**İşin məqsədi.** Tədqiqat işimizin məqsədi yüksək qan təzyiqi müşahidə olunan pasientlərdə hipertenziyanın erkən diaqnostikası, mövcud risk faktorlarının öncədən qiymətləndirilməsi və proiltihabi marker olan sortilinin arterial hipertenziyanın inkişafında prediktor rolunu göstərmək olmuşdur.

**Material və metodlar.** Mövcud elmi tədqiqat işi üçün 25-45 yaş arasında olan Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Fövqəladə Hallar Nazirliyinin müvafiq qurumlarında xidmət edən hərbiçilər cəlb olunub. Tədqiqatımız zamanı 2019-cu ilin yanvarından 2021-ci ilin sentyabrına qədər 120 xəstənin ümumi sayı çalışdığımız prospektivli tədqiqata daxil olmaq üçün qiymətləndirilib. Xəstələr hipertenziya diaqnozu ilə (55 xəstə) və nəzarət (65 sağlam) olmaqla, hamısı kişi olmaqla 2 qrupa bölünmüşdür. Biokimyəvi parametr-lərinin ölçülməsi IMMAGE 800 analizatoru (Beckman Coulter, CA, ABŞ) vasitəsiylə Almaniya istehsalı olan ELİSA (Sigma-Aldrich, USA) reaktivindən istifadə olunaraq aparılıb. Müvafiq statistik test və korrelyasiya analizləri aparılmışdır.

**Nəticələr.** Bu nəticələr onu göstərdi ki, 25-45 yaş arası olan hərbiçilərdə arterial hipertenziyanın yayılma dərəcəsi ortalama 7,8 % təşkil edir. Serum sortilin səviyyələri 1,75 ng/ml-dən yuxarı 76% həssaslıq və 66% spesifiklik ilə arterial hipertenziya prediktə etmiş oldu. Həmçinin hipertenziyalı hərbi qulluqçularda proiltihabi marker olan serum sortilin apo-B və LDL ilə pozitiv (P~0.001) korelyasiya təsbit olundu.

**Yekun.** Mövcud tədqiqat işimizdə arterial hipertenziyalı xəstələrdə gələcəkdə ola biləcək yüksək qan təzyiqi xəstəliklərini öncədən müəyyənləşdirmək məqsədi ilə proiltihabı marker olan sortilinin və apo-B dəyərlərinin prediktor əhəmiyyətinin önəmi öz tədiqini tapmışdır.

**Tibb xidməti mayoru İlahə Ağayeva (Abdurəhmanova)**

Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzi